# HİKMƏT MAHMUDUN ÖZÜ VƏ SÖZÜ,

## YAXUD “ÖZÜ HİKMƏT, SÖZÜ HİKMƏT” KİTABI ÜZƏRİNDƏ DÜŞÜNCƏLƏR



**Şəddat CƏFƏROV**

***iqtisadiyyat elmləri üzrə fəlsəfə doktoru, Azərbaycan və Rusiya Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü, Beynəlxalq Yazarlar Birliyinin üzvü***

Hikmət Mahmud (Hikmət İsmayıl oğlu Mahmudov) Azərbaycanın görkəmli elm xadimi olduğu kimi, həm də kifayət qədər tanınmış, sevilən bir şair idi. Təbiət etibarı ilə çox yumşaq, ünsiyyətcil, ən müxtəlif mövzularda maraqlı müsahib idi. Onunla mənim tanışlığım çox uzun illər bundan əvvəl hələ onun ilk kitabı çap olunarkən baş tutmuşdu. O vaxt mən də gənc idim, Hikmət Mahmud da kifayət qədər gənc idi. Onu da deyim ki, həmyaşıd olduğumuz üçün münasibətlərimiz tez istiləşdi. Onun ilk kitabının çapı ilə bağlı yadımda qalan bir-iki məqam var ki, onu elə bəri başdan demək istəyirəm.

Məlumdur ki, o dövrdə şairlərin yaradıcılığında *“Lenin”*, *“oktyabr”*, *“partiya”* mövzularına diqqət yetirilirdi. Xüsusilə cavan şairləri elə bil ki, gözə görünməz kimlərsə nəzarətdə saxlayır. Onların ideya, düşüncə istiqamətlərinə fikir verirdilər, xüsusilə hər bir müəllifin yaradıcılığında siyasi səbat həmişə diqqətdə olurdu.

Hikmət Mahmud geoloq alim idi. Hətta Nebitdağda qızıl yataqlarının kəşfi də onun adı ilə bağlıdır. Bu səbəbdən çox tez məşhurlaşmışdı. Onu da deyim ki, özünə kifayət qədər güvəncli cavan idi. Kitabını nəşrə verəndə məlum oldu ki, onun kitabında *“Lenin”*, *“partiya”*, *“oktyabr”* mövzularında bir misra da yoxdur. Kitab isə mətbəəyə qədər gəlib çatmışdı. Necə oldusa, kitabı geriyə istədilər. Müəyyən müddətdə sonra o, kitabının heç bir dəyişiklik edilmədən nəşrinə icazə ala bildi. Bunu ona görə xatırladıram ki, təbiətən azad adamlar hər bir çətinlikdən son nəticədə çıxış yolu tapa bilir. İndiki gənclərin qarşısında bir balaca maneə çıxan kimi mübarizə aparmaq əvəzinə az qala həyatdan küsürlər.

Onu da deyim ki, Hikmət Mahmudun mənsub olduğu ailə hələ yetmişinci illərdə Respublikada nüfuz qazanmış övladları ilə tanınırdı. Söhbət yarım əsr bundan əvvəldən gedir. Qardaşı Fikrət Mahmudov rayonların birində milis rəisi idi.

Dostum Əli Rza Xələfli mənə bildirdi ki, bəli, yetmişinci illərdə Fikrət Mahmudov Cəbrayılda milis rəisi olmuşdu. İnsanlara humanist münasibəti, ağsaqqallığı, ağayanalığı, bir sözlə, əsil ziyalılığı ilə çalışdığı sistemdə kifayət qədər fərqlənirdi. Onu da deyim ki, Hikmət Mahmudun böyük qardaşı Rəşid Mahmudov da Respublikada xüsusi nüfuzu və ziyalılığı ilə fərqləndiyi üçün çox tez irəli çəkilmişdi. Müxtəlif rayonlarda rəhbər vəzifələrdə çalışmış, *“Kommunist”* qəzetinin baş redaktoru olmuş, nəhayət, Dövlət Mətbuat Komitəsinin sədri olarkən mən onunla birgə işləməli olmuşdum.

Bütün bunları ona görə xatırladıram ki, Hikmət məhz belə bir ailədə pərvəriş tapmış, sözünün sahibi kimi tanınmışdı. Çox tez elmi araşdırmalarını yekunlaşdırmış, geologiya-mineralogiya elmləri üzrə alim olmuşdu. Əlbəttə, sonralar doktorluq işini də uğurla müdafiə etdi. Elm aləmində nüfuzlu bir professor kimi tanındı. Yeni alimlər nəslinin yetişməsində əvəzsiz xidmətlər göstərdi.

Bir neçə kəlmə də Əli Rza Xələflinin “Özü Hikmət, sözü hikmət” kitabının araya-ərsəyə gəlməsi ilə bağlı fikrimi də bildirmək istərdim.

Mən 20 ildən çoxdur ki, *“Kredo”* qəzetini ardıcıl olaraq izləyirəm. Bu qəzetin səhifələrində Hikmət Mahmudun dərc olunan şeirlərini də maraqla oxuyurdum. Şübhəsiz, Hikmətgilin həyat mövqeyini mən onun bədii yaradıcılığında da hiss edirdim. Elə bu səbəbdən də onun şeirlərindən hansısa biri məni tutanda, diqqətimi cəlb edəndə özünə də zəng edirdim. Əvvəlcə xoşuma gələn bəndləri oxuyur, sonra da münasibətimi aydınlaşdırırdım, fikir mübadiləsi aparırdıq. Bu beləcə xeyli müddət davam etdi. Sonra gördüm ki, H.Mahmudun poeziyası ilə bağlı, hətta elmi əsərləri ilə bağlı yazılar *“Kredo”*da geniş yer alır. Əlbəttə, imza məlum idi. Dostum Əli Rza Xələfli H.Mahmudun yaradıcılığı ilə bağlı qeydlərini də maraqla oxuyur və bu barədə də həm H.Mahmudla, həm də məqalə müəllifi ilə fikirlərimi bölüşürdüm.

Bir gün məqalələrin sıralanmasını müşahidə etdiyimdən Əli Rza Xələfli bu məqalələri bir kitab halında çap etdirməyi məsləhət gördüm. O da bildirdi ki, bu Hikmət Mahmuddan asılıdır. Onsuz da, Hikmət Mahmudla hərdən telefon əlaqəmiz davam edirdi. Ona da fikrimi bildirdim. Əlbəttə, bu təşəbbüsün çox dəyərli olmasını qeyd etməklə razılığını da bildirdi.

Ancaq kitabın araya-ərsəyə gəlməsi prosesi uzun müddət, eləcə də məqsəd uğrunda inadlı çalışmalar tələb edir. Bir gün Xələfli zəng edib vaxtı ilə ona bildirdiyim ideyanın gerçəkləşməkdə olduğunu mənə çatdırdı. Hətta həmin kitaba *“ön söz”* yazmağı da qərara almışdım. Yəqin ki, H.Mahmud haqqında burada qeyd etdiyim xatirələri də onda yazacaqdım. Həmin arada mənim işim çox oldu. Vaxt isə gedirdi. Axır ki, kitab nəşrə hazırlandı, redaktor və *“ön söz”*ün müəllifi də Elçin Mehrəliyev oldu; hörmətli yazıçımız və alimimiz. Hər halda kitabın araya-ərsəyə gəlməsi məni sevindirirdi. Onu da xatırladım ki, həmin ərəfədə Hikmət Mahmudun səhhətində müəyyən problemlər yaranmışdı. Böyrəyi nizami fəaliyyətdən qalırdı. Ürəyi şıltaqlıq edirdi. İnsafən biz kitabı sürətlə nəşrə hazırladıq və kitab çap prosesində ikən Hikmət Mahmudun vəfatı xəbərini aldıq. Bu məni çox kədərləndirdi. Heç olmasa, kitabın nəşrini görməyə də vaxt çatmadı. Hikmətin ailə üzvləri, həyat yoldaşı Mahizər xanım, qızı Nailə xanım qayğılarını əsirgəmədi. Kitabın nəşrini də çox hörmətlə qarşıladılar. Heç vəfatından 40 gün keçməmiş biz kitabı ictimaiyyətə çatdırdıq, ailə üzvlərinə də tirajın müəyyən hissəsini verdik.

Bütün bunlar bir insan həyatının, bir insan taleyinin yazıya gələn məqamlarıdır. Əgər bir insanın həyat yolunu, tale yolunu bəzəksiz-düzəksiz olsa belə, olduğu kimi yazmaq mümkün olsaydı, nəhəng bir kitabxana yaranardı. Amma hər halda insanın həyat yolunu, yaradıcılıq mənzərəsini göstərən bir kitabın yazılması, şübhəsiz, uğurlu bir tale qismətidir.

Əli Rza Xələflinin *“Özü Hikmət, sözü hikmət kitabı”* (2021) ayrı-ayrı məqalələrdən ibarət olsa da, ustad sənətkarın həyat və yaradıcılıq yoluna kifayət qədər işıq sala bilir.

Kitabın rəyçisi, filologiya elmləri doktoru, professor Yadulla Ağazadə yığcam qeydlərində görülən işi yüksək dəyərləndirir. Oxucuların maraq dairəsində olacağına inandığını yazır. Biz həmin rəydən kitabın annotasiyası kimi istifadə etdik Yadulla Ağazadə yazırdı: *“Şair-publisist Əli Rza Xələflinin “Özü Hikmət, sözü hikmət” adı ilə oxuculara təqdim olunan kitabı görkəmli alim-şair Hikmət Mahmudun həyat və yaradıcılığı haqqında ədəbi qeydlər və publisistik düşüncələrdən ibarətdir. Müəllif bu kitabı əslində şair Hikmət Mahmudun yaradıcılıq taleyinə həsr edib. Ayrı-ayrı vaxtlarda yazıya gətirilmiş düşüncələr görkəmli sənətkarın yaradıcılıq yolunu məntiqi ardıcıllıqla izləyir. Şairin ədəbi portretini yaradıcılığında və həm də həyatda olduğu kimi verməyə çalışması göstərir ki, müəllif Hikmət Mahmudun təkcə həyatını yox, həm də yaradıcılığını axıra qədər dəqiqliklə izləyə bilmişdir.*

*İnanırıq ki, Əli Rza Xələflinin “Özü Hikmət, sözü hikmət” kitabı görkəmli şairimiz, eyni zamanda geologiya elmində özünəməxsus yeri, yolu olan alim haqqında ədəbi abidə kimi oxucularının diqqətini cəlb edəcək, hikmətləri ilə məşhur olan şairin əbədiyaşarı obrazına sevgi hissləri aşılayacaqdır”.*

Kitabın üçüncü səhifəsində, yəni annotasiyadan sonra Hikmət Mahmudun həyatının son çağlarına yaxın çəkdirdiyi bir fotosunu da təqdim etdik. Fotonun altında bu qeydlər var: *“Hikmət Mahmud (Hikmət İsmayıloğlu Mahmudov) (1936-2020)”*. Təkcə ad və yaşam dövrünü göstərən tarixlər, bir sözlə, olum və ölüm arasındakı məsafə haqqında oxucu düşüncəsinə kifayət qədər meydan var.

Hər bir kitabın, xüsusilə elmi-publisistik əsərlərin, zənnimcə, bir neçə missiyası olsa da, əsas missiyası haqqında yazılan şəxsiyyəti həyatına uyğun faktlarla cəmiyyətə tanıtmaqdır. Görünür, bu tələbi nəzərə aldığından müəllif kitabının əvvəlindəcə Hikmət Mahmudun tərcümeyi-hal qeydlərinə xüsusi yer verir: *“Hikmət İsmayıl oğlu Mahmudov 15 may 1936-cı ildə İsmayıllı rayonunun Mican kəndində müəllim ailəsində anadan olub. 1963-cü ildə BDU-nun Geologiya fakültəsini bitirib. 1963-1966-cı illər Qazaxıstanda, Maqadanda və Azərbaycan Geologiya idarəsində (indiki Ekologiya və Təbii Sərvətlər Nazirliyi) istehsalatda işlədiyi dövrdə bir neçə qızıl, gümüş, pyezokvars, perlit və obsidian yataqları aşkar edib xalqın istifadəsinə veribdir. 1967-ci ildən AMEA Geologiya və Geofizika İnstitutunda fəaliyyət göstərir. 50 ilə yaxındır elmi tədqiqat işləri ilə məşğuldur. Bu müddətdə professor H.İ.Mahmudovun 200-dən çox elmi əsərləri, o cümlədən 20-ə qədər monoqrafiyaları, elmi kitabları, habelə 5 dərslik kitabı və 7 ixtirası işıq üzü görübdür. Elmdə bir çox yeniliklər edən Hikmət Mahmudov həm də 50 ildir ali məktəblərdə geokimya və ekologiya fənlərindən dərs deyir. Onun vaxtı ilə dərs dediyi tələbələr bu gün akademiklər, akademiyanın müxbir üzvləri və professorlardır”*. Onu da demək lazımdır ki, Hikmət Mahmudun həm elmi yaradıcılığı, həm də bədii əsərləri, poeziyası, memuar romanı, Azərbaycan mənəvi mühitində xüsusi maraqla qarşılanıb. Onu da qeyd edim ki, onun elmi nailiyyətləri dünyanın ən görkəmli elm adamları və məşhur elm ocaqlarında təqdir olunur. Onu müvafiq sahə üzrə tanınmış, görkəmli simalar, xüsusilə yüksək qiymətləndirirdilər.

Hikmət Mahmud çoxlu ödüllərin sahibi idi. Ən başlıcası, Azərbaycan Respublikasının Prezidenti tərəfindən fərdi təqaüdlə təmin edilmişdi. Şübhəsiz, Respublika rəhbəri Hikmət Mahmudun vicdanlı bir ziyalı olduğunu, fədakar pedaqoji fəaliyyətini, ardıcıl elmi yaradıcılığını, eyni zamanda həm də bədii irsini ona fərdi təqaüd təyin edərkən nəzərə almışdı. Şübhəsi, daha geniş oxucu əhatəsində bədii yaradıcılığı ilə tanınırdı. Kitabın müəllifi Hikmət Mahmudun bədii yaradıcılığına dair faktları və xüsusilə ona münasibəti də diqqətdə saxlayır: *“Hikmət Mahmudun bir çox şeir kitabları oxuculara yaxşı tanışdır: “Çiçəklərin intizarı”, “Danışanda-güləndə”, “Qocalmağa tələsmə”, “Könül açan söz deyək”, “Dünya, sənin nəyin yoxdur...”, “Qıyma gözəlliyə”, “Karvan yolu”, “Mənim yaddaş kitabım” və s. Onun 50-dən çox şeirlərinə görkəmli bəstəkarlar mahnılar bəstələyiblər. Hikmət Mahmud poeziyasına dövrümüzün bir çox qüdrətli qələm sahibləri - Bəxtiyar Vahabzadə, İlyas Əfəndiyev, Əli Vəliyev, Hüseyn Arif, Məmməd Araz, Famil Mehdi, Nəriman Həsənzadə, habelə böyük ədəbiyyatşünas alimlər - Əkrəm Cəfər, Pənah Xəlilov, Xalid Əlimirzəyev, görkəmli filosof-alimlər, akademiklər - Firudin Köçərli, Fuad Qasımzadə, İsa Həbibbəyli və başqaları çox yüksək qiymət veriblər. Onun şeirləri müxtəlif xalqların dillərinə tərcümə olunubdur”*. Əlbəttə, burada adları çəkilən ziyalılar Azərbaycan mədəni mühitinin, ədəbiyyatımızın XX əsrin ikinci yarısında ən üzdə olan, ən tanınan simalarıdır. Şübhəsiz, adları çəkilən böyük ədəbiyyat adamlarının mühitində Hikmət Mahmudun söz sahibi olması artıq onun bir şair kimi mövqeyinə işıq salır.

Hər bir sənətkarın dəyərli həyatı gələcək nəsillər üçün məktəbdir. Ona görə də sənətkarın bədii irsi, elmi yaradıcılığı haqqında faktlar xüsusi biblioqrafiyalarda əks olunur. Bu da gələcək tədqiqatçıların işini asanlaşdırmaq üçün əsas vasitələrdən biridir.

***(Davamı 11-ci səhifədə)***

*(Əvvəli 10-cu səhifədə)*

Hikmət Mahmudun da həyat və yaradıcılıq yolunu göstərən biblioqrafiya haqqında məlumat da oxucunu əsərin qəhrəmanına, əsərin əsas obrazına daha çox yaxınlaşdırır. Biblioqrafiyadakı faktlar əsasında biz sənətkarın, alimin həyat yolunu tam təsəvvür etmək imkanı qazanırıq. Kitabın müəllifi biblioqrafiya haqqında kifayət qədər dolğun məlumat verir: *"Hikmət Mahmudun bir şəxsiyyət, bir alim, bir şair kimi mənəvi mühitimizdəki yerini göstərən çox dəyərli bir nəşr nümunəsi də var. Bu, AMEA-nın Geologiya və Geofizika İnstitutunun elmi şurasının qərarı ilə çap olunmuş "Hikmət Mahmud" (tərtibçilər: Geologiya-mineralogiya elmləri doktoru, əməkdar elm xadimi, professor Şahin Balakişibəyli; elmi işçi Kəmalə Səmədova; redaktor Səyavuş Məmmədzadə; "Azərbaycanın elm və mədəniyyət xadimlərinin biblioqrafiyası" seriyasından, Bakı "Nurlan", 2017, 200 səhifə) biblioqrafiyasıdır.*

*Dəyərli elmi nəşr kimi bu kitabın əsas diqqəti cəlb edən cəhəti budur ki, nəinki bu günü, həm də gələcək nəsillərin Hikmət Mahmud haqqında hər hansı bir sualına cavab üçün tutarlı mənbədir. Biblioqrafiya Hikmət Mahmudun həm elmi, həm də pedaqoji fəaliyyətinin xronoloji mahiyyətini özündə ehtiva edir.* — *kimi müasirləri tərəfindən qiymətləndirilmişdir. Biblioqrafiyaya "ön söz" yazmış akademik Akif Əlizadə görkəmli zəka sahiblərinin ad sırasını yada salır (Mirəli Qaşqay, Əzəl Sultanov, Şəfaət Mehdiyev, Həsən Əliyev, Ziya Bünyadov, Budaq Budaqov, Sultan Mehdiyev, Sübhü Salayev, Abel Məhərrəmov..., İsmayıl Şıxlı, Ələkbər Tağıyev, Süleyman Ələskərov, İslam Rzayev...), sonra yekun sözü ilə Hikmət Mahmudun əsil ziyalı obrazını gördüyü kimi xarakterizə edir".* Göründüyü kimi, burada Azərbaycan və dünya elminin ən nadir simalarının adları çəkilir. Şübhəsiz, əsas olmasaydı, nə Akif Əlizadə, eləcə də onun adlarını çəkdiyi digər simalar qətiyyən elm adamı və onun elmi yaradıcılığı haqqında hansısa boğazdan yuxarı söz deməzdilər. Bu faktlar (yəni adlar) göstərir ki, Hikmət Mahmud elə həmin nüfuzlu elm adamları ilə Azərbaycan elminin şöhrətlənməsində əvəzsiz xidmətlər sahibi olub.

Hər hansı bir elmi məsələ haqqında ümumi sözlərlə danışmaq mümkün deyil. Yəni Hikmət Mahmudun elmi kəşfləri, bir sözlə, zəngin elmi yaradıcılığı Azərbaycan xalqının çox dəyərli xəzinəsi kimi gələcəkdə də həmişə diqqətdə olacaq. Görünür, akademik Akif Əlizadə elə bu məqamları nəzərdə tutduğu üçün yazır: *"Hikmət Mahmud geniş dünyagörüşlü, dərin zəkalı, fitri istedada malik, zəhmətsevər bir insandır. Bu şəxsiyyət bütün insani keyfiyyətləri özündə cəm edibdir. Yüksək mədəniyyət, təmkinlik, sakit danışıq tərzi, sadə davranış qaydaları, sözü sakit və kəskin, habelə cəsarətlə deməsi Hikmət Mahmud dünyasının daxili aləminin psixologiyasını əks etdirir. Bir çox məclislərdə Hikmət Mahmudun kəsərli və cəsarətli çıxışları, xüsusən də xalqımıza qəsd edən düşmənlərimizə qarşı onun ifşaedici nitqləri və şeirləri bütün Azərbaycan xalqının ürəyincə olmuşdur. Damarlarında əsil azərbaycanlı qanı axan bu böyük insan bütün varlığı ilə hər zaman xalqımızın dilini, mədəniyyətini qürurunu qorumağı bacaran böyük ziyalıdır. Hikmət Mahmud dilimizin paklığını, təmizliyin və büllurluğunu qorumağa daima ürəkdən səy göstərir. Azərbaycana Hikmət Mahmud kimi geniş düşüncə və yüksək bilik diapozonuna malik ziyalılar hava və su kimi vacibdir".* Bir sözlə, bütün bu faktlardan sonra Əli Rza Xələflinin belə bir qənaətinə mən də şərik oluram ki, Hikmət Mahmud ölməz elmi və bədii irsi ilə Azərbaycan xalqının milli sərvəti kimi gələcək zamanlarda da istinad mənbəyi olacaqdır.

Hikmət Mahmudun bədii yaradıcılıq taleyinə işıq salan "Özü Hikmət, sözü hikmət" kitabına artıq qeyd etdiyimiz kimi yazıçı, filologiya elmləri doktoru Elçin Mehrəliyev *"ön söz"* yazıb. *"Ön söz"*ün əvvəlində Elçin Mehrəliyev müəllif Ə.R.Xələflinin bir dördlüyünü epiqraf gətirir:

***Hər kəsə öz yurdu, vətəni candır,***
***Hardan ağrı keçsə, orda can candır.***
***"Eşitsin dünyamız, bilsib hər amal",***
***Mənim qürur yerim Azərbaycandır!***




*rək söz sarıdan elə bir istedadın olsun ki, qısa məkan içində böyük mətləbi ifadə edə biləsən. Oxucu həmin qısa məkanda mətn içində göstərmək istədiyin obrazı dolğunluğu ilə görə bilsin".* Zənnimcə, bu qeydlər kitab haqqında ümumi təəssüratı ümumiləşdirmək baxımından çox dəyərlidir. Oxucuya məlum olur ki, Hikmət Mahmudun yaradıcılıq konsepsiyası hansı mənəvi özüllər üzərində bərqərar olub.

Hikmət Mahmud bədii yaradıcılığında həmişə Azərbaycan təbiətinin gözəlliklərini, sadə xalqın özünün təbiətini, bir sözlə, Azərbaycan özünü tərənnüm edib. Əslində *"Özü hikmət, sözü hikmət kitabı"* da bu həqiqəti diqqətə çəkir.

Azərbaycan təbiətinə vurğunluğun bir səbəbi də Hikmət Mahmudun ixtisasca geoloq olduğu üçün vətənimizin hər bir qarışını yaxından görmək üçün gəzmiş, Azərbaycan torpaqlarının nəinki üzdə olan gözəlliklərini, həm də yerin alt qatlarındakı zənginliklərini də öyrənə bilmişdir. Ona görə də onun yaradıcılığında elm və sənət onun ruhunun pəvazlanması üçün qoşa qanad olmuşdur.

İnsanın həyatının mənası özündən sonra faydalı iz qoymağı ilə ölçülür. Ona görə də Hikmət Mahmud da Azərbaycan təbiətini, bir sözlə, vətəni seyirçi bir nəzərlə ömründən keçirmir.

# HİKMƏT MAHMUDUN ÖZÜ VƏ SÖZÜ,

## YAXUD "ÖZÜ HİKMƏT, SÖZÜ HİKMƏT" KİTABI ÜZƏRİNDƏ DÜŞÜNCƏLƏR

*liyyətinin xronoloji mahiyyətini özündə ehtiva edir. Hər hansı bir oxucu, əlbəttə, əsasən tədqiqatçı Hikmət Mahmudun həyat və yaradıcılıq yolu ilə bağlı etibarlı mənbə axtararsa, bu kitab onun üçün bələdçi olacaqdır. Çünki buradakı faktların etibarlılığına, doğruluğuna və düzgünlüyünə təminat var. Bu təminat H.Mahmudun özünün diqqətidir. Çünki biblioqrafiya onun sağlığında nəşr olunub. Və bütün elmi və ədəbi fəaliyyətinə məsuliyyətli olan Hikmət Mahmud biblioqrafiyada göstərilən bütün faktları özünün diqqətindən kənarda qoymayıb".* Onu da deyək ki, məşhur adamların həyat və yaradıcılıq yolu özlərindən sonra daha geniş öyrənilir, daha ciddi maraq dairəsində olur və bu zaman biblioqrafiyalar tərtib olunur. Ancaq mənə elə gəlir ki, hər bir müəllifin, bir sözlə, elm, sənət adamının öz zamanında yaradılmış biblioqrafiyalar daha mötəbərdir. Çünki buradakı faktlar şəxsiyyətin özü tərəfindən heç olmasa müəyyən səviyyədə izlənilir, səhvlər düzəldilir, xətalar aradan qaldırılır.

Biz onu da qeyd etdik ki, Hikmət Mahmudun bədii yaradıcılığı görkəmli ədəbiyyat adamları tərəfindən necə yüksək qiymətləndirilirdisə, elmi yaradıcılığı da Azərbaycan elminin korifeyləri tərəfindən eləcə yüksək dəyərlə rəğbətləndirilib. Bu barədə də kitabın əvvəlində kifayət qədər aydın məlumat verilir: *"Biblioqrafiyanın əhatə etdiyi ictimai mühit iki istiqamətdə bütün aydınlığı ilə Hikmət Mahmudu təqdim edir. Biz burada həm Hikmət Mahmudun elmi fəaliyyətini izləyən, onun elmi yaradıcılığına münasibət bildirən alimlərin siyahısını və onların sözlərini, həm də bu görkəmli ziyalının şair obrazını xarakterizə edən ədəbi mühitin çox tanınmış zəka sahiblərinin adlarını (ad sırasının) görürük. Demək, Hikmət Mahmud həm elmi ilə, həm də bədii yaradıcılığı ilə kifayət qədər yaşadığı uzun ömründə zamanının həmişə üzdə olan söz-sənət sahibi* — *mud geniş dünyagörüşlü, dərin zəkalı, fitri istedada malik, zəhmətsevər bir insandır.*

Əlbəttə, *"Özü Hikmət, sözü hikmət"* kitabı Hikmət Mahmudun elmi yaradıcılığından çox onun bədii yaradıcılığına önəm verir. Çünki kitabda verilmiş məqalələrin əsas tədqiqat obyekti kimi Hikmət Mahmudun poetik kitabları əsas götürülür. Poeziyanın sehir, ovsun olduğu haqqında qədim zamanlardan bəri ən müxtəlif insanların düşüncələrindən gələn fikirlə var. Onu da qeyd etmək yerinə düşər ki, hər kəs özünün mənəvi mühitindən gələn münasibəti ifadə etməklə insanların düşüncələrinə təsir göstərməyə çalışır. Əlbəttə, biz o təsiri uca tuturuq ki, insanları aliliyə, mənəvi ucalığa səsləyir. İnsanlığın yoluna işıq salmağa çalışır.

Əlbəttə, bu dördlükdə əsas fikir bundan ibarətdir ki, şair üçün, ziyalı üçün, ümumiyyətlə, hər kəs üçün vətən əsasdır. Görünür, hər bir milli insanın formalaşması üçün yer-yurd həmişə birinci şərt olaraq qalacaq. Bu dördlükdə də vətən anlamında konkret adı çəkilən Azərbaycanımızı görürük. Ancaq üçüncü misra dırnaqda verilib. Və bu misra Hikmət Mahmudun öz yaradıcılığından iqtibas olunub. Çünki Hikmət Mahmud vətən sevgisini vaxtı ilə bir çoxlarının önə çəkdiyi partiya, oktyabr, Lenin istəklərindən daha uca tutur.

Kitabın redaktoru Elçin Mehrəliyev müşahidələrini yazısının əvvəlində, elə girişdəcə ümumiləşdirir və istəyir ki, onun diqqətini çəkən obrazlar oxucuya da bəribaşdan, qabaqcadan məlum olsun: *"Əziz oxucu, bu dördlüyü yaxşı oxu! Burada 3 obraz var. Birincisi, vətən obrazıdır. Azərbaycan obrazıdır. İkincisi, müəllifin istinad etdiyi, özünə ustad bildiyi, yaradıcılığını zaman-zaman tədqiq etdiyi Hikmət Mahmudun obrazıdır. Üçüncüsü də, "Özü Hikmət, sözü hikmət" kitabının müəllifi Əli Rza Xələflinin özünün obrazıdır. Mənə belə gəlir ki, elə bu kitab 3 obrazın vəhdətini özündə ehtiva edir".* Bu qeydlərdən sonra Elçin Mehrəliyev kitabın ümumi mənzərəsi haqqında fikirlərini şərh üçün həmin dördlük üzərində düşüncələrini davam etdirir: *"Əli Rza Xələfli "Özü Hikmət, sözü hikmət" kitabını yazarkən Hikmət Mahmudun mənəvi mühitini diqqətlə öyrənib. Onun Hikmət Mahmud haqqında yazdığı ədəbi-publisistik düşüncələrinin əvvəlində belə bir dördlük var; və mən də həmin dördlüyü bu kitaba yazdığım "ön söz"ün epiqrafına gətirdim. Müəllif həmin dödlükdəki üçüncü misranı Hikmət Mahmudun öz yaradıcılığından əxz edib. Elə ona görə də həmin misranı dırnaq içərisinə alıb. Az sözlə obraz yaratmaq, az sözlə böyük mətləbi ifadə etmək, şübhəsiz, həm də böyük məharət tələb edir. Gə-*

O, gördükülərini, duyduqlarını həm sənətində əks etdirir, həm də elm üçün nəyi yazmaq lazımdırsa, onu yazıb mənəvi irsə çevirmişdir. Hikmət Mahmudun qoşaqanadlı müəllif olduğunu Elçin Mehrəliyev də qeyd edərək yazır: *"Əli Rza Xələflinin "Özü Hikmət, sözü hikmət" kitabının indi əlyazma kimi qəbul etdiyimiz bilgisayar nüsxəsi ilə tanışlıq mənim üçün ötəri olmadı. Kitabı vərəqlədikdən sonra Hikmət Mahmudun - özü də yaxşı tanıdığı Hikmət Mahmudun yaradıcılığı ilə təzədən maraqlandım. Onun Sovet dövründə çap olunmuş kitablarını da vərəqlədim. Nəhayət, müstəqillik zamanında işıq üzü görmüş elmi və bədii kitablarını da nəzərdən keçirdim. Hətta mənim üçün Hikmət Mahmudov imzası ilə nəşr olunmuş "Geoloji tariximizə nəzər" elmi monoqrafiyası xüsusilə maraq doğurdu. Bu kitabın dəyəri ona görə daha çox əhəmiyyətlidir ki, Azərbaycanın geologiya tarixini yazıçı dili ilə və kifayət qədər elmi siqlətdə təqdim edir. Bu kitab həm elm adamları, həm də oxucu aləmi üçün çox maraqlıdır. Əlbəttə, mənim məqsədim bu barədə geniş danışmaq deyil, axı biz müəyyən mənada həm də şair Hikmət Mahmudun müasirləriyik. Onu daha çox şair kimi tanıyırıq. Hikmət Mahmud ədəbi aləmə gəldiyi zamandan üzü bəri, yəni 1971-ci ildə nəşr olunmuş "Çiçəklərin intizarı" kitabı ilə poeziyamızda yeni bir nəfəs olduğunu göstərib. O vaxtın ədəbi həvəskarları kimi mənim və həmyaşıdlarımın qəlbini oxşayan şeirləri ilə yaddaşımızda özünə yer elədi. Sonralar bir neçə kitabı çap olundu, ədəbi mühitdə tanındı. Və biz sözə, yəni ədəbiyyata yolumuz açıldıqca Hikmət Mahmud imzasını daha çox gördük və onun şair obrazını kifayət qədər dolğunluğu ilə tanıdıq".* Bu qeydlərdə də Elçin Mehrəliyev Hikmət Mahmudu zamanında necə tanıdığını, onun ürəklərə yol tapan şeirlərinin təsir gücünü xüsusilə diqqətə çəkir.

***(Davamı var)***